https://doi.org/10.36719/2663-4619/109/104-108

**Gülsüm Tağızadə**
Qərbi Kaspi Universiteti
magistrant
gulsumtagizade9@gmail.com
https://orcid.org/0009-0002-0841-5107

# Nadir şahın Dağıstana hərbi səfərləri və onların nəticələri

## Xülasə

XVIII əsrin ortalarında Nadir şahın Dağıstana yürüşləri vacib tarixi hadisələrdən biridir. Nadir şah Dağıstanın strateji əhəmiyyətini nəzarət altına almaq və bu regionu Əfşar dövlətinin hakimiyyəti altına almaq istəyirdi. Osmanlı İmperiyası və Rusiyanın da Dağıstanı ələ keçirmək istəyi, Nadir şahın bölgəni həm siyasi, həm də hərbi cəhətdən idarə etmək əzmini daha da gücləndirdi. Lakin yerli əhalinin sərt müqaviməti uzun və qanlı döyüşlərə səbəb oldu. Hərbi uğurlarına baxmayaraq, Nadir şah Dağıstanda tam nəzarət əldə edə bilmədi. Bu uğursuzluğun səbəbləri arasında ordunun uzun müddət ərazidə qalması və bunun nəticəsində ciddi logistik və təchizat problemləri ilə üzləşməsi, coğrafi və iqlim şəraitinin çətinliyi və yerli əhalinin qətiyyətli müqaviməti dayanırdı.

Nadir şahın Dağıstan yürüşü Əfşar dövlətinə bir sıra mənfi təsir göstərdi: əsgərlərin ağır şərtlər altında üzləşdiyi çətinliklər onların vəziyyətini daha da ağırlaşdırdı, Dağıstana müdaxilə isə yerli liderlər ilə Əfşar dövləti arasında gərginlik yaratdı. Ümumilikdə, bu yürüş Əfşar dövlətinin siyasi, iqtisadi və sosial bazasını zəiflətdi və onun gələcək inkişaf perspektivlərini azaltdı.

Məqalədə təhlil və müqayisə metodlarından istifadə edilərək, Nadir şahın hərbi yürüşlərinin səbəbləri, gedişi və nəticələri detallı şəkildə araşdırılmışdır.

***Açar sözlər:*** *Nadir şah Əfşar, Dağıstan, Osmanlı imperiyası, üsyan, yürüyüş*

**Gulsum Taghizade**
Western Caspian University
Master student
gulsumtagizade9@gmail.com
https://orcid.org/0009-0002-0841-5107

# Nadir Shah’s Military Campaigns in Dagestan and Their Consequences

## Abstract

In the middle of the 18th century, Nadir Shah's campaigns in Dagestan played a significant historical role. Nadir Shah intended to control the strategic position of Dagestan and bring the region under the rule of the Afsharid state. However, the ambitions of the Ottoman Empire and Russia for this territory further reinforced Nadir Shah's desire to manage the region politically and militarily. Yet, the fierce resistance of the local population resulted in prolonged and bloody battles. Despite some military successes, Nadir Shah never managed to gain complete control over Dagestan. The reasons for this defeat included the prolonged presence of his army in the region, which led to serious logistical and supply challenges, difficult geographical and climatic conditions, and the determined resistance of the local population.

Nadir Shah's Dagestan campaign had numerous negative effects on the Afsharid state, further deteriorating the already difficult conditions faced by soldiers and causing tension between local leaders and the Afsharid state. This campaign weakened the political, economic, and social foundations of the Afsharid state and ultimately reduced its future development prospects.

Using methods of analysis and comparison, the article provides a detailed examination of the causes, developments, and outcomes of Nadir Shah's military campaigns.

***Keywords:*** *Nadir Shah Afshar, Dagestan, Ottoman Empire, rebellion, campaign*


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Nadir şahın Dağıstana yürüşləri barədə geniş və dərin araşdırmalar nisbətən azdır. Bu yürüşlər imperiya genişlənməsi və yerli müqavimət baxımından çox əhəmiyyətli hadisələrdən biridir. Mövzunun tədqiq olunması və yazılması isə bu dövr haqqında daha əhatəli məlumatların toplanmasına və tarixi boşluqların doldurulmasına kömək edir.

Nadir şahın Dağıstana hərbi yürüşləri XVIII əsrin ortalarında baş vermiş əhəmiyyətli tarixi hadisələrdən biridir. Osmanlı imperiyası və Rusiyanın Dağıstanı ələ keçirmək istəyinin artması, Nadir şahın bu bölgəyə yönəlmiş strateji məqsədlərini daha da gücləndirmişdir. Strateji əhəmiyyətinə görə, Dağıstan Əfşar imperiyasının hökmranlığı üçün vacib bir mövqe sayılırdı. Nadir şahın Dağıstana səfərləri əvvəlcə uğurlu keçsə də, yürüş zamanı Dağıstan əhalisi müstəqillik və azadlıq uğrunda ciddi müqavimət göstərdi. Bu da Nadir şahın ordusu qarşısında böyük çətinliklər yaratdı.

Bu mövzu yalnız tarixi hadisələrin öyrənilməsində deyil, eyni zamanda bölgənin hazırkı siyasi vəziyyətini anlamaq üçün də əhəmiyyətlidir. Nadir şahın Dağıstana yürüşləri təkcə hərbi bir əməliyyat olmayıb, həm də tarixi proseslərin inkişafında mühüm rol oynamışdır.

**Tədqiqat**

Şərqin sonuncu fatehi –Nadir şah Əfşar tariximizdə dərin izlər buraxmışdır. Nadir şah, hərbi strategiyaları və çevik döyüş taktikaları ilə tanınmışdır. Onun mükəmməl planlama qabiliyyəti və döyüş meydanında tətbiq etdiyi unikal metodlar tarixdə geniş şəkildə məşhurluq qazanmışdır. Tarixçilər öz əsərlərində Nadir şahı Əmir Teymur, Napaleon Bonapart, Böyük Fridrix kimi dünya lideriyləriylə müqayisə edirlər (Süleymanov, 2010, s. 668). Nadir şah strateji düşüncə qabiliyyəti ilə seçilən bir şəxsiyyət idi. Nadir şahın strateji planları sayəsində ordusu dəfələrlə rəqiblərini məğlub etmiş və böyük əraziləri nəzarət altına almışdır. Nadir şahın strateji planları arasında Dağıstanı işğal etmə niyyəti də mövcud idi. Nadir Şahın Dağıstanı işğal etmə istəyinə səbəb olan faktorları analiz edərkən, onun regiondakı strateji əhəmiyyətini nəzərə almaq lazımdır. Dağıstanın, Osmanlı və Rus İmperatorluqları ilə rəqabət mühitində Nadir Şah üçün cəlbedici bir bölgə olduğu aydındır. O öz ərazisini genişləndirmək və Dağıstanın dağlıq ərazilərinə nəzarət etmədən regionu tamamilə ələ keçirməyin mümkünsüz olduğunu düşünürdü. Nadir Şah, dağlıq əraziləri fəth etməyə çalışmasa belə, bu ərazilərin onun üçün problem yaradacağını bilirdi, çünki bu bölgələr mövcud vəziyyətdən narazı olan insanların sığınacağına çevrilmişdi (Məmmədova, 2021, s. 44).

Səfəvi dövlətinin orijinal sərhədlərini bərpa etmək prioritet bir vəzifə kimi həyata keçirildiyi dövrdə, Dağıstan rəhbərləri ilə münasibətlər mühüm bir mövzu idi. 1721-ci ildən etibarən geniş Şirvan vilayətini ilk olaraq Hacı Davud, 1728-dən sonra isə Surxay Xan idarə edirdi (Məmmədova, 2021, s. 44). Şirvanın strateji əhəmiyyətini, Surxay xanın Qafqazdakı siyasi təsirini və onun güzəştə getməz mövqeyini nəzərə alaraq, Nadir xan ilk növbədə onu tabe etməyə çalışdı. 1734-cü ildə Şirvanı boşaltmağı rədd edən Surxay xan, göndərilən 20 nəfər nümayəndədən 19-nu öldürdü, bir nəfəri isə xəbər aparsın deyə Nadirin yanına göndərdi. Bu da Nadir xanın ona qarşı hərbi əməliyyatlar başlatmasına təkan verdi (Qurbanov, 2008, s. 138). 1734-cü ilin avqustunda Şirvanı işğal etdi, şəhəri tamamilə dağıtdı və ətraf bölgəni talan etdi. Bu hərəkətləri ilə Nadir, Azərbaycanın və Dağıstanın xalqlarını qorxutmaq məqsədini güdürdü. Lakin Surxay xan bu təzyiqlərə boyun əymədi. O, Qəbələdə öz ordusunu toplayaraq Nadir xan ilə mübarizə aparmağa qərar verdi. Dəvəbatan dağı yaxınlığında baş verən döyüşdə Nadir xan, Surxay Xanın qüvvələrini ağır məğlubiyyətə uğratdı (Tahirzadə, 2002, s. 13).

Nadirin Dağıstana növbəti yürüşü 1735-ci ilin son ayları və 1736-cı ilin əvvəlinə təsadüf edir. 1736-cı ilin əvvəlində isə Nadir böyük bir ordu ilə Dağıstana doğru hərəkət etdi. Surxay xan, Usmi Əhməd xan, Şamxal Eldar və Car-Balakən camaatlığı Nadir Şaha qarşı bir ittifaq qurmuşdu. Nadir Şah bu birliyi məğlub etdikdən sonra Surxay xan Avarıstana qaçdı. Bir müddət sonra Surxay xan qiymətli hədiyyələr təqdim edərək Nadir Şaha tabe olduğunu bildirdi (Bakıxanov, 2000, s. 59). 1736-cı ilin martında Başlı, Qaytaq, Tabasaran və Samur Nadirin hakimiyyəti altında qaldılar. Qazıqumuq ələ keçirildi və ağsaqqallar tabe olduqları barəsində məlumat verdilər (Süleymanov, 2010, s. 407). Beləliklə, 1735-ci ilin sonu 1736-cı ilin əvvəlində olan bu yürüşü Nadir üçün qalibiyyətlə nəticələndi. Dağıstanın bir çox feodalı onun hakimiyyətini tanıdılar. Nadir, 1736-cı ilin martında Muğan'a doğru hərəkət edərək, özünü İran şahı olaraq elan etdi. Nadir şah qardaşı İbrahim xanı

Azərbaycan və Dağıstanın hakimi təyin etdi (Qurbanov, 2008, s. 139). Nadir Şah, 1737-ci ildən etibarən Əfqanıstan, Hindistan və Orta Asiyaya hərbi yürüşlər edirdi. Onun Qafqazdan uzaqlaşması, Dağıstanda və Şimali Azərbaycanda üsyanlar üçün bir fürsət yaratdı. Dağlıların amansız hücumları Əfşarlar dövlətinin cavab verməsinə səbəb oldu (Lokkarts, 2003, s. 337). İlk olaraq, 1738-ci ilin yayında Qazıqumıxlı Surxay xanı, Usmi Əhməd Xanı və Əli Sultan Tsakuri'yi müzakirə üçün dəvət etmiş, onları inandıraraq məsələni həll etməyə səy göstərmişdi. Yalnız Əli Sultan onun dəvətini qəbul etdi. Artıq vəziyyət gərginləşməyə başlamışdı (Məmmədova, 2021, s. 46). Car və Tala dağlıları özlərinə güvənərək qiyam qaldırdılar. İbrahim xan qiyamı yatızdırmaqdan ötrü hərəkətə keçdi. İbrahim xanın qüvvələrinin yaxınlaşdığını öyrənən carlılar, Usmi Əhməd xan və Surxay xandan kömək istədilər. Əhməd xan Tabasaran, Xınalıq və digər ərazilərdən Cara 20 min əsgər göndərir. Bu məlumat Dağıstan qaynaqlarında da təsdiqlənir (Murtazayev, 2009, s. 34). Carlıların əzmkarlığını görən İbrahim xan əsgərlərinə xəndək qazmağı və böyük hərbi istehkamlar tikməyi əmr etdi (Michael, 2006, p. 245). İbrahim xan əvvəlcə qalibiyyət əldə etsədə, dağ başında gizlənən dəstə ona qarşı pusqu qurmuşdu. Gizlənən dəstə İbrahim xanın qüvvəsini məğlub edərək, onların bir çoxunu qətlə yetirdilər (Bakıxanov, 2000, s. 61). İbrahim xan tüfəng gülləsi ilə öldürüldü. Mənbələrə görə, 32,000 nəfərlik ordudan yalnız 7,800 nəfər qalmışdı; qalanları düşmən tərəfdən məhv edilmişdi. Dağılıların Əfşar dövlətinə qarşı üsyanı davam edirdi (Qurbanov, 2008, s. 143).

1739-cu ildə Səfi xan Dağıstana böyük bir ordu göndərir ancaq üsyanı yatıra bilmir. Bu xəbəri Pişavərdə olan Nadirə şaha çatdırdılar. Nadir şah özünün qayıtmasını gözləmədən üsyançıların cəzalandırılmasını əmr etdi (Bakıxanov, 2000, s. 61). Nadir şah Əfşarın 1741-ci ilin əvvəlində qardaşı İbrahimın öldürülməsinə görə ləzgilərdən intiqam almaq və Osmanlılarla müharibə etmək istəyirdi. 14 mart 1741-ci ildə Nadir 150000-lik ordu ilə Məşhəddən Dağıstana yola düşdü. O, Rza Qulu və İmam Qulu ilə birlikdə Dağıstana doğru yola çıxdı. Onlar əvvəlcə Novruz bayramını qeyd etdilər daha sonra Astarabada doğru irəlilədilər (Michael, 2006, p. 247).

Mənbələrdə qeyd edilir ki, Nadir Şah Novruz bayramında möhtəşəm yeni bir tac taxmışdı və bu tacda adətən dövləti simvolizə edən qara qartal tükü əvəzinə dörd tük var idi. Dörd tük Nadirin artıq fəth etdiyi Fars, Hindistan və Türküstan torpaqları ilə yanaşı, gələcəkdə fəth etmək istədiyi Osmanlı İmperiyasını da simvolizə edirdi. Amma Nadir Şah, dəbdəbəni sevmədiyi üçün, tacı yalnız bir dəfə taxıb və sonra bir daha istifadə etməyib (Michael, 2006, p. 247).

Ordu Astarabada çatmadan əvvəl, əsgərlər Gəraylı vadisində şiddətli yağışlar altında çətinliklə irəlilədilər. Ordu düşərgəyə yerləşdiyi zaman, ani bir sel gəlib bir neçə min insanı və heyvanı aparıb. Nadirin xəzinəsini də sel də itdi. Xəzinənin dəyəri təxminən 500,000 toman idi (Murtuzayev, 2009, s. 36). Su səviyyəsi daha da yüksəldi. Nadir şahın çadırının ətrafındakı çadırlar da suya qərq oldu. Qulluqçular və əyanlar Nadir şahın təhlükəsizliyi üçün çadırını tərk etməsini istədilər. Amma Nadir şah onları dinləmək istəmədi. O, təbiətin ecazkar gözəlliyini seyr edərək, dərin düşüncələrə daldı. Bir az sonra tufan səngidi (Əfşar, 2014, s. 106). Sel dayandıqdan sonra ordu bir neçə gün həmin ərazidə qaldı. Nadir şah seldə həlak olan əsgərlərin meyidlərinin dəfn edilməsini əmr etdi. Selin apardığı xəzinənin tapılması üçün axtarışlar aparıldı. Xəzinənin bir hissəsini tapmaq mümkün oldu. Təxminən 2-3 gündən sonra qoşun Astrabada tərəf irəlilədi. Onlar bir neçə gün də Astrabadda qaldılar (Süleymanov, 2010, s. 412).

Nadir şaha məlumat verilmişdi ki, Qəni xan və Fətəli xan qüvvələri Dağıstanda uğurlu əməliyyatlar keçirirlər. Həmin qüvvə Carda, Tala Cızıxda istehkam mövqelərini ələ keçirmişdi. Xüsusilə Ağzıbirdə yerli dəstələrə qarşı ciddi mübarizə aparılmışdı. Bu fəaliyyətinə görə Qəni xan ordusu Nadir şah tərəfindən 10 min tümənlə mükafatlandırıldı. Nəticədə, Samur çayı ətrafındakı ərazilər yenidən tabe edildi. Nadirin ordusu Qumuxu işğal etdi. Bir çox dağlılar Nadirin hakimiyyətini heç bir müqavimət göstərmədən qəbul etməyə başladılar (Lokkart, 2003, s. 337). Sentyabrın 12-də Nadir şah Avarıstana kəşfiyyat xarakterli yürüş etdi. Hava şəraitinin kəskinləşməsi Dağıstanda əməliyyatların həyata keçirilməsini çox çətinləşdirdi. Nadir qüvvələrini Qumlaqdan Dərbəndə doğru yönləndirdi və burada düşərgə qurmalarını əmr etdi. Hava şəraitinə görə, 1742-ci ilin yazına qədər Nadir bu düşərgədə qalmağa davam etdi (Əfşar, 2014, s. 107). İlk ciddi toqquşmalar Tabasaranda baş verdi. Tabasaran əhalisi üsyan qaldırdığı və itaət etmədiyi üçün, Nadir şah əvvəlcə onların üzərinə getməyin vacib olduğunu, onları yer üzündən silmək və o torpaqlarda

yaşayan əhalini məhv etməyin daha doğru olacağını düşündü. Surxay xan və Usmi Əhməd xanın hərbi qüvvələrindən əlavə 10000 Avar da Tabasaranlılara qoşuldu (Sotavov, 2012, s. 72). 1742-ci ilin mayında Nadir şah Tabasaranda üsyançılara qarşı hərəkətə keçdi. Nadir şahın qoşunu üsyançılara qarşı 3 dəfə hücuma keçsə də, uğursuzluqla nəticələndi. Ancaq Dibek kəndi yaxınlığında baş verən döyüş Nadirin qalibiyyəti ilə nəticələndi. Beləliklə, Nadir şah Tabasaranın ərazilərini öz hakimiyyəti altına ala bildi (Lokkart, 2003, s. 417).

Usmi Əhməd xanın itaətsizliyi Nadir şahın qoşununa ağır başa gəldi. Nadir şah Qaraqaytaq da yaşayan insanların qoşun dəstəsi ilə birlikdə köçürülməsini əmr etdi. Usmi Əhməd xan və onun hərbi dəstəsi Qaraqaytağın sıx meşəsində gizlənmişdi. Nadir şahın qüvvəsi Qaraqaytaq meşəsinə çatdıqları zaman Usmi xan onların atəşə tutulmasına əmr verir. Qaraqaytaq silahlılarının qəfil hücumu Nadir şahın döyüşçülərində çaşqınlıq yaratdı. Onlar özlərini toplamağa imkan tapmamış xəyanətin qurbanı oldular. Qoşunun böyük hissəsi öldürüldü, sağ qalanlar isə əsir apardılar. Hətta bu dəstə Nadir şah Əfşarın qərargahına basqın edərək, bir neçə qadını özləriylə apardılar. Bu xəbər Nadir şahı xeyli əsəbləşdirdi və and içdi ki, Dağıstanda üsyan qaldıran dəstələri məhv etməyincəyə qədər Dağıstan hüdudundan heç bir yana getməyəcəkdir (Bakıxanov, 2000, s. 63). Nadir Şah 20,000 nəfərlik hərbi dəstə ilə Qaraqaytağa yürüyüş etdi. Onun məqsədi Qürreyş qalasında gizlənən düşməni Usmi Əhməd xanı ələ keçirmək idi. Usmi Əhməd xan yerli sakinləri Nadir şahla mübarizə etməyə təşviq edirdi. Xalqın mübarizə aparacağını öyrənən Usmi Əhməd xan cəsarətini toplayib, Nadir şah ilə birbaşa döyüşmək arzusu ilə onun yolunu kəsdi (Əfşar, 2014, s. 109). Qızğın müharibə davam edərkən, dağlıların döyüşə girməsi Nadir şah üçün çətinlik yaratdı. Bu zaman Nadir məğlub olacağını düşündü ancaq döyüşün sonunda Abdal-Qani xan özünü çatdırdı (Bakıxanov, 2000, s. 64). Düşmənlərə qarşı amansız olan Nadir şah 3 saat davam edən müharibənin sonunda qalibiyyət əldə etdi və Qürreyş qalası ələ keçirildi. Müharibənin məğlubiyyətlə bitdiyini görən kişilər uşaqlarını və arvadlarını öldürüb, özlərini uçurumdan atdılar (Lokkart, 2003, s. 339). Usmi Əhməd xan Nadir şahın qəzəbinə tuş gəlməmək üçün gizlin yollarla Avara qaçdı. Nadir Qürreyş qalasının dağıdılması barəsində əmr verir. Hərbi əməliyyatların ağır getməsinə baxmayaraq, Nadir şahın hərbi dəstəsi Dağıstanın böyük bir hissəsini ələ keçirdi (Əfşar, 2014, s. 109). 1742-ci ilin sonunda Nadir Şah Qumuq, Qaytaq və Tabasaran da ərazilərini genişləndirməyə davam edirdi. O dövrdə Nadir Şahın əsgərlərinin vəziyyəti getdikcə çətinləşirdi. Buna səbəb çətin qış şəraiti, susuzluq, qida çatışmamazlığı idi (Murtazayev, 2009, s. 7). Bu vəziyyət həm insanlara, həm də heyvanlara ciddi ziyan vurdu. Bir çox əsgər həyatını itirdi və heyvanlar tələf oldu. Mənbələrə görə, Samura çayından Şabranadək olan yol insan meyidləri və heyvan leşləri ilə dolmuşdu (Lokkart, 2003, s. 338).

Qumuq yürüyüşü Rusiya və Əfşar İmperiyası arasında müharibəyə təkan verə biləcək bir yürüyüş idi. Dağıstanda ruslara məxsus bir qala var idi. Bu qala Qızlar qalası idi. Qeyd edək ki, 1735-ci ildə bağlanmış müqaviləyə görə, Sulak çayı iki dövlət arasında sərhəd olaraq qəbul edilmişdi. Bu müqavilənin şərtlərinə görə, sərhədi pozan hər hansısa güc Rusiya imperiyası tərəfindən düşmən elan ediləcəkdi. Əfşarların yürüyüş planını öyrənən ruslar Qızlar qalasının gücləndirməkdən ötrü qüvvə topladılar (Məmmədova, 2021, s. 54). Ancaq qısa müddət sonra Nadir şaha Osmanlıların hərbi dəstəsinin Qafqaza doğru irəlilədiyi haqqında xəbər verdilər. Nadir şah eyni zamanda həm Osmanlı ilə, həm də Rusiya ilə müharibə apara bilməzdi. Vəziyyətin gərginliyini anlayan Nadir şah ruslara hücum etməyin imkansız olduğunu düşünərək, Muğan düzünə doğru irəlilədi. Dərbənddə qarnizon saxladı. Məhəmmədəli xan Qırxlıyı qarnizona rəhbərlik etməsini əmr etdi (Süleymanov, 2010, s. 416). Hava şəraiti kəskinləşməyə başladı. Yol boyunca dağlardan axan çaylar güclü axınlara çevrildi, heyvanlar soyuqdan və yorğunluqdan tələf oldu, bəziləri seldə həlak oldu. Ərzaq çatışmazlığı var idi, bu zaman bir çox əsgər də həlak oldu. Hətta əsgərlər aclıqdan insan əti də yeməyə başlamışdılar (Lokkart, 2003, s. 339).

Usmi Əhməd xan 1745-ci ildə Dərbəndə yaxınlaşdı. Məhəmmədəli xan Qırxlıyı şəhəri tərk edərək, Şabran doğru irəlilədi. Ancaq burada o, usmi Əhməd-xan tərəfindən məğlubiyyətə uğradı (Murtazayev, 2009, s. 45). Qiyamçılar artıq Dərbəndi ələ keçirdilər. Qalibiyyətə doymayan Usmi Əhməd xan Şirvanda baş verən üsyana yardım etmək qərarına gəlir. O və Dağıstanın bir çox rəhbərləri Osmanlı tərəfindən siyasi səhnəyə çıxarılmış, özünü Şah Hüseynin oğlu kimi tanıdan saxta şəhzadə Səfi Mirzəyə dəstək çıxdılar (Tahirzadə, 2002, s. 16). Bu dövrdə Nadir şah, bütün

gücünü Osmanlı imperiyası ilə aparılan müharibəyə yönəldirdi. Usmi Əhməd xan və bir çox tabasaran ağsaqqalları osmanlı ordusuna yardım etmək üçün Qarsa doğru irəlilədilər. Ancaq Nadir şah osmanlı ordusuna qarşı qalibiyyət əldə edərək, Qarsı mühasirəyə alır. Bu hadisədən xəbər tutan Usmi Əhməd xan gecənin zil qaranlığında öz hərbi dəstəsiylə birlikdə buranı sakitcə tərk edir (Məmmədova, 2021, s. 58). 1745-ci ildə Dağıstanda Əfşarlar dövlətinə qarşı yenidən xalq üsyanı başladı. Bu dəfə Nadirin tərəfdarları olan bəzi feodallar da üsyana qoşuldular. Dağıstan və Şimali Qafqaz xalqlarının uzun sürən müqaviməti Nadirin ordusunu əhəmiyyətli dərəcədə zəiflətdi. 1744-cü ildə Nadir 30 minlik ordusu ilə yenidən Dağıstana yürüş etsə də, qalibiyyət əldə edə bilmədi (Aytberov, 2017).

Azərbaycan, Dərbənd, Ermənistan, Gürcüstan kimi ərazilərdə qiyamlar getdikcə böyüməyə başlamışdı. Nadir şah Dərbəndi yenidən ələ keçirmək üçün hazırlıqlar edirdi. Ancaq onun bu istəyi gerçəkləşə bilmədi. Çünki 1747-ci il iyunun 20-də baş vermiş sui-qəsd nəticəsində Nadir qətlə yetirildi (Qurbanov, 2008, s. 146). Bir çox mənbəyə görə, Nadir şahın qətlə yetirilməsində onun xanımı Raziyə xanımın da rolu var idi (Ernest, 2006).

## Nəticə

Nadirin Dağıstana hərbi səfərləri, Əfşar imperiyasının regionda hakimiyyətini genişləndirmək cəhdləri ilə yanaşı, böyük fəsadlar və nəticələrlə müşayiət olundu. Dağıstanın strateji əhəmiyyətini və bölgə üzərində nəzarət etməyin zəruriliyini dərk edən Nadir şah, uzun və çətin hərbi yürüşlər həyata keçirdi. Hava şəraitinin kəskin olması, qıtlıq, təbii fəlakətlər, üsyanlar və s. Nadir şahın Dağıstanı ələ keçirmək istəyini uğursuzluqla başa çatdırmasına səbəb olur. Napaleon Bonapart Nadir şah haqqında maraqlı fikirlər diktə etmişdir. Napoleon güclü bir hökmdar idi, mənfur düşmənə qarşı amansız və vətən xainlərinə qarşı sərt idi. Bu, Nadir şahın daxili və xarici siyasətinə mənfi təsir edərək Əfşar dövlətinin gücünü zəiflətdi və nəticədə yerli üsyanların və müqavimətin artmasına səbəb oldu. Nəticədə, Nadirin Dağıstana yürüşləri nə Əfşar dövlətinin, nə də Nadir şahın gözlədiyi nəticələri vermədi və onun imperiyasının zəifləməsində mühüm rol oynadı. Nadir şahın 1747-ci ildə öldürülməsi Dağıstanı işğal etmək arzusunu yarımçıq qoydu.

## Ədəbiyyat

1. Bakıxanov, A. (2000). *Gülüstani – İrəm.* Minarə.
2. Əfşar, C. H. (2014). *Azərbaycan Nadir Əfşar dövləti.*
3. Qurbanov, R. (2008). *Qafqaz tarixi.*
4. Lokkart, L. (2003). *Nadir Şah- İlkin mənbələr əsasında tənqidi tədqiqat.*
5. Məmmədova, R. (2021). *Nadir Şahın Dağıstana III səfəri.* TYB Akademi.
6. Sotavov, N. A. (2012). Nadir şahın ulduzu Dağıstanda batdı. *Hərbi-tarixi jurnal*, 72.
7. Süleymanov, M. (2010). *Nadir Şah.*
8. Tahirzadə, Ə. (2002). *Nadir şah Əfşar.*
9. Aytberov, T. (2017). *On the third Dagestani campaign of Nader shah.*
10. Ernest, T. (2006). *Nader Şah, Encyclopaedia Iranica.*
11. Murtazayev, A. O. (2009). Rol' Kaytaga v razgrome voysk Nadir-Shakha v Dagestane v 1734-1747 gg. *Vestnik Instituta Iae,* 3, 34, 36, 45.
12. Michael, A. (2006). Nader Shah, from Tribal Warrior to Conquering Tyrant. *Tauris,* 245, 247.

Daxil oldu: 08.09.2024
Baxışa göndərildi: 26.10.2024
Təsdiq edildi: 04.12.2024
Çap olundu: 20.12.2024